# Kim bir namazı unudarsa onu xatırladığı zaman qılsın. Onun kəffarəsi ancaq budur

Ənəs bin Məlik (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Kim bir namazı unudarsa onu xatırladığı zaman qılsın. Onun kəffarəsi ancaq budur". {Məni xatırlamaq üçün namaz qıl!} [Ta-Ha Surəsi: 14].

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) fərz namazlarından hər hansı birini vaxtı çıxdıqdan sonra xatırlayan kimsənin, xatırladığı zaman o namazı qəza etməyə tələsməsini və bu namazı tərk etmənin günahını, xatırladığı an qılmasından başqa bir şey örtüb, silə bilməyəcəyini bəyan etmişdir. Uca Allah Qurani Kərimdə belə buyurmuşdur: {Məni xatırlamaq üçün namaz qıl!} [Ta-Ha Surəsi: 14]. Bunun mənası, yəni: unutduğun namazı xatırladığın zaman qıl deməkdir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee